## QEYD VƏ ŞƏRHLƏR

**İstiqlal müdafiəsi üçün**

səh. 331. "əlaci-vaqeə piş əz vüqu bayəd kərd": "hadisənin əlacını hadisə baş verməzdən öncə etmək lazımdır. (farsca)

**Məclisi-Müəssisan Seçkiləri Haqqında Qanun**

səh. 332. "Məclisi-Müəssisan Seçkiləri Haqqında Qanun": qəzetdə bu başlığın yerinə səhvən "Felyeton" getmişdir.

**Sülh ətrafında**

səh.337. "Şandun": Çinin şərqində yarımada və əyalət. Şandun əyaləti XIX əsrdə Almaniyanın maraq dairəsinə daxil olmuşdu.

**Türkiyədə**

səh.339. "Babi-ali" (hərfən "uca qapı"): Osmanlı dövlətində Sədrəzəmin (Baş nazirin) sarayına verilən ad; beynəlxalq münasibətlərdə "Osmanlı hökuməti" mənasında işlədilirdi.

səh. 340. "İslamın nəzərində pək böyük bir əhəmiyyəti...": bu cümlə qüsurludur; qəzetdə belə getmişdir.

**Türküstan övzası**

səh. 341. "Yomudlar" (yaxud Yomutlar): Türkmənlərin əsas qollarından biri.

səh. 342. "Sart, sartlar": Türküstanda oturaq həyat tərzi yaşayan uyqur və özbəklərə köçəri əhali tərəfindən verilən ad.

**Cümə günkü mühüm xəbərlər**

səh. 342. "Morninq post" [The Morning Post]: Londonda 1772-1937-ci illərdə çap olunan gündəlik qəzet.

"Revel": İndiki Estoniyanın paytaxtı Tallin şəhərinin köhnə adı.

"Corcian meyl" [The Georgian mail]: Tiflisdə ingilis dilində nəşr edilmiş qəzet.

**Bakı Bələdiyyə İdarəsi**

səh. 344. "ələkçinin qıl verəni": qəzetdə "ələkçinin" yerinə "əkinçinin" getmişdir.

**Bənzərdi**

səh. 345. "Ofelya": Şekspirin "Hamlet" faciəsinin qəhrəmanlarından biri.

**Firqələr və cəmiyyətlər**

səh. 348. "19 şaban 1337": burada tarix hicri təqvimlə verilmişdir; miladi təqvimlə 20 may 1919-cu ilə uyğundur.





**Bazar ertəsi, 20 oktyabr 1919-cu il, nömrə 300**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Düşənbə, 25 məhərrəmül-haram sənə 1338. 20 təşrini-əvvəl 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 2 manat 50 q.**

**Abunə şəraiti: Qeyri şəhərlər üçün 1 aylığı 70 rublə, 2 aylığı 130 rublə, 3 aylığı 180 rublə. Bakı üçün 1 aylığı 60 rublə, 2 aylığı 110 rublə, 3 aylığı 150 rublə. Abunə şəraiti ancaq həmin sənə yanvar ayının 1-nədək heasb olunur.**

**Elan fiatı: birinci səhifədə sətri 8 rublə, axırıncı səhifədə sətri 6 rublə, itən şeylər və yer axtaranlar üçün 4 rublə axırıncı səhifədə, 6 rublə birinci səhifədə.**

## ELAN

Hökumət Müfəttişliyi naziri həzrətlərinin 12 həmin oktyabr 1438 nömrə təliqəsinə binaən [rəsmi məktubuna əsasən], bu gündən etibarən Cümhuriyyətimiz daxilində olan ümum gömrükxanaların və əvvəl mərhələdə Ağstafa gömrükxanasının təftişinə şüru etdim [başladım].

Ümumdan kamali-ehtiramla rica və təmənna edirəm ki, məzkur [deyilən] gömrükxanaya əşya və malların müsadirəsi və hakəza [habelə] qeyri biqanunluqlar barədə olan şikayətlərini Hökumət Müfəttişliyi Nəzarətinə (dəniz kənarı Mirbabayevin evləri) kitabətən [yazılı] və yaxud və ya şifahən Ağstafa istasyonunda məlum və ixbar etsinlər [xəbər versinlər].

*Dövlət Müfəttişliyi nazirinin xüsusi əmrlər məmuru:*
*Məcnunbəyov.*
*T-290*

## SİRK "MODERN"

Düşənbə günü oktyabrın 20-ndə 1919-cu ildə məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə təşkil edilmiş Fransa güləş mübarizəsinin mabədi.

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1-nci: Qara Maska – Zakoroyko.

2-nci: Muznik – Oleynikov.

3-ncü: Buyvolov – Staroşvili.

Pəhləvanların çıxışı və mübarizənin başlanması saat 11-in yarısında.

Tamaşa başlanacaq 8-də, qurtaracaq 12-də.

Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

Elan: Məşhur türk pəhləvanı Gənc Əlinin benefisi hazırlanır.

*11460*

## AŞPAZXANA "QAFQAZ"

Dəniz kənarında Hacı Zeynəlabdin Tağıyev mülkündə Portovı uçaski yanında olan "Qafqaz" aşpazxanası İran natiqlərindən təbrizli Mirzə Hüseyn Məhəmməd oğlu aldığı münasibətilə səliqəli xörəklər hazırlanır münasib qiymətə və divan qulluqçusu üçün 5 prosent əskik hesab olunacaq. Nəqd və zakaz qəbul olunur.

*11464*

## ÜMUM MÜSƏLMANLARA BAKI MÜSƏLMAN CƏMİYYƏTİ-XEYRİYYƏSİ TƏRƏFİNDƏN MÜRACİƏT

Cənubi və Şimali Qafqaziyada vaqe olan böyük hadisələr nəticəsi olaraq Ermənistan və Dağıstandan Bakıya bir çox qaçqınlar gəlməkdədir. Minlərlə fələkzədələr vətən və yurdlarını, mal və əmlakını tərk edib düşmənlərin təzyiqi-əsarətindən xilas olmaq üçün diyarbədiyar düşmüşlərdir. Bunlardan bir çoxu Bakı müsəlman qardaşlarına pənah gətirərək Bakıya gəlmişlərdir. Bunların bir çoxu arvad və uşaq olub kişilərini, sahiblərini və pərəstarlarını [himayəçilərini] düşmən tərəfindən qətl edildiyi cəhətə tərk və qeyb etmişlərdir. Ümumən qaçqınlara, xüsusən böylə məzlumlara pərəstarlıq etmək əlbəttə bizim vəzifəmizdir.

Müsəlləmdir [aydındır] ki, biz müsəlmanlar fələkzədələrimizin dərdlərinə biliştirak [ortaq olmaqla], müavinət göstərməliyiz. Qismi-əzəmi [çoxu] xəstə və məlul [şikəst] arvad-uşaqdan ibarət olan qaçqınların əlbəttə rəxti-xaba [yorğan-döşəyə], ayaqqabıya, paraya və qeyri şeylərə ehtiyacları olduğundan, Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsi onların işbu ehtiyacatının rəfi [aradan qaldırılması] üçün iqdamatda [təşəbbüsdə] bulunaraq işbu əşyanı toplamağa qərar vermişdir. Əşya və mal Parlaman qarşısında, Nikolayevski və Spasski küçələrin küncündə, Cəmiyyətin idarəsində qəbul edilir və ya 9-18 nömrə telefonla idarəyə xəbər verilərsə, Cəmiyyət nümayəndəsi gəlib qəbzül-vüsul [çatdırılma qəbzi] verərək əşyanı ala bilər. (Əlbəttə nümayəndənin Cəmiyyət tərəfindən rəsmi şəhadətnaməsi olmalıdır.)

Bundan başqa, qaçqınların nəfinə [xeyrinə] olaraq atidə [aşağıda] göstərilən yerlərdə də ianələr topladılır:

1) Tağıyevin fabrik kontoru (Qorçakovski küçədə);
2) Mehdi Cəfərovun kontorunda (Polis küçəsində);
3) Birinci İstiqrazi-Mütəqabilə Bankında;
4) Qəni Məhəmmədov kontorunda (Dərya kənarında);
5) Kərbəlayı Məhəmmədəli Salehovun mağazasında (Dərya kənarında);
6) Musa bəy Əmircanovun kontorunda (Dərya kənarı).

Toplanmış əşya və ianələr haqqında qəzetə vasitəsilə xəbər veriləcəkdir.

*Sədr: Qasım Qasımov*

## PARLAMAN MƏRKƏZİ HAQQINDA

Günün məsələləri arasında, heç şübhəsiz ki, böhrani-hökumət [hökumət böhranı] məsələsi ümmül-məsaildir [əsas məsələdir; bütün problemlərin anasıdır].

Yəqin ki, ədəbi türkcə əleyhində olan "əlifbaçılarımız" həman duruxub da "ümmül-məsail"in nə olduğunu soracaqlar. Bunun təhtəl-ləfz [sözaltı] tərcüməsi "məsələlər anası" deməkdir.

Doğrudan da, bu günlərdə Azərbaycan həqayiqi [həqiqətləri] nöqteyi-nəzərindən baxılarsa, hökumət böhranı qədər böyük və onun qədər də digər bir çox məsələlər və böhranlar doğuran vəlud (yəni çox doğan) bir məsələ təsəvvür olunmasın.





Fəqət bu böhranın səbəbi nədir?

Nəsib bəy [Yusifbəyli] əfəndinin kəndi istefası xüsusunda Məclisi-Məbusan rəisi müavini-əvvəli [birinci müavini] Həsən bəy Ağayev həzrətlərinə göndərdiyi istefanamədə səbəbi-rəsmi olaraq hökuməti təşkil edən firqələr arasında siyasi mühüm məsələlər üzərində çıxan ixtilaf və bundan dolayı hökuməti tutacaq bir Parlaman mərkəzinin yoxluğudur. Böylə bir mərkəz yoxdur, çünki əhali deyir, firqəbazlıq vardır. Çünki firqəçilik ev dağıdır.

Fəqət həqiqətdə də iş böyləmidir?

Parlamanda yalnız müsəlmanlar arasında beş firqə və altıncı olaraq xaric-əz [bunlardan əlavə] firqələr var ikən söyləmək istəyirəm ki, həqiqəti-hal böylə deyildir. Mərkəz yoxdur, çünki firqə yoxdur, çünki firqəçiliklə təfriqəçiliyə [ayrılıq, ikitirəlik, nifaq tərəfdarı olmağa] fərq qoyan azdır.

Firqə bir fikri-siyasi [siyasi bir fikir] üzrə qurulmalıdır. Firqə cəmiyyətdən müəyyən bir qisminin mürəvvici-əfkarı [fikirlərinin tərəfdarı, fikirlərini yayan] olmalıdır. Böylə olmayınca o, firqə deyil, təfriqədir. Və onunla məşğul olanlar firqəçilikdən ziyadə təfriqəçidirlər.

Firqəçilikdə əsas [prinsip] və məslək – əsl; şəxs və tərzi-hərəkət – fər'idir [ikinci dərəcəlidir]. Təfriqəçilikdə isə, biləks [əksinə], fər'i olan əsasiyyat [prinsiplər], əsl olan isə şəxsiyyatdır [şəxsi qənaətlərdir].

Bizim məmləkətdə başlıca üç mühüm məsləki-siyasi ayrıla bilər. Buna görə də əsasiyyat üzərinə qurulmaq şərti ilə üç bəlli-başlı firqə təəssüs edə [qurula] bilər:

1) Mühafizəkaran [mühafizəkarlar] firqəsi ki, bunun istinad eylədiyi sinif, dini hər bir əsasati-siyasiyyədə əsl görən qeyri-müasir üləma [ruhanilər], əski etibar və adatdan [adətlərdən] daha ayrılmamış olan və feodal bir həyatın təsiratından azadə qalmayan əsilzadəgan sinfi ilə həmpalarıdır. O sünufun [siniflərin] məfkurəsi dini mövzular daxilində nəşvü-nüma bulacağından [inkişaf edəcəyindən], ittihadi-islam [islam birliyi] fikri onların şüarı və mühakimələrinin binasını təşkil edir.

Azərbaycan mühitindəki "İttihad" firqəsi iştə bu məfkurənin səmərəsi və bu sinfin dəstpərvərdəsidir [yetişdirməsidir].

2) Tərəqqipərvəran firqəsi ki, bunun dayanacağı sinif feodalitə halından çıxmaq istəyən, müasir bir həyatla yaşamaq diləyən və Azərbaycan xalqının əksəriyyətini təşkil edən sənaye sinfi və "xırda burjua" denilən əsnaf ilə mülk sahibi və mülkiyyət zehniyyətli köylülərdir. Bu kimi sünufun məfkurəsi dini məbnalarla [binalarla, bünövrələrlə] bərabər və onlardan daha ziyadə milli və əsri [müasir] fikirlər üzərinə təəssüs edə biləcəyindən, milliyyət, təbiri-digərlə [başqa sözlə] türklük fikri onların düsturu və nəzəriyyələrinin ədəsəsini [toplayıcı, birləşdirici mərkəzini] təşkil edər.

Mühitimizdəki Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsi iştə bu qisim əhalinin mücahidi və bu məsləkin məhsuludur.

3) Ərbabi-yəsar (sollar) firqəsi ki, bunların dayağı heç bir şeyə malik olmayan və bunun üçün də məmləkət əsasının ilğası [ləğvi] fikrini çar-çabuq qəbul edə bilən fabrik və zavod əmələsidir.

"Proletari" denilən bu sinfin məfkurəsi sosializm və siyasi mürşidləri də sosialistlərdir ki, bəzmi-həqiqətdə [həqiqət

məclisində] onlar "Hümmət" firqəsi şəklində təcəlli etməkdədir [meydana çıxmaqdadır].

Bu üç cərəyan üçün Azərbaycan daxilində bir əsas üzərinə dayanaraq həyat sürmək və biri-biri ilə rəqabəti-siyasiyyədə bulunmaq haqqı vardır.

Halbuki bizim Parlamanda bunların xaricində bitərəflər firqəsi ilə bir də "Əhrar" firqəsi vardır.

Bunlar nə deyir?

Bitərəflər həddi-zatında [həqiqətdə, təbiəti etibarilə] müəyyən bir məfkurəyə bağlı bir qrup deyildir. Onlarda birini digəri ilə bağlayan inanılmış və etiqad edilmiş bir məzhəbi-siyasi yoxdur. Fəqət bununla biz onların məsləki yoxdur demək istəməyiriz. Bu qrup içərisində əhvali-ruhiyyə və məsləki-siyasiyyə etibarilə müxtəlif təmayüllü adamlar vardır. Onları bir araya toplayan, əvvəla, təyini-məslək xüsusundakı müştərək tərəddüdləri, saniyən [ikincisi] də, bir taqım yüksək növdən olmayan ufaq-tufaq [xırda-xuruş] mülahizələrdir.

"Əhrar"a gəlincə, bunların ayrı başına bir firqə təşkil etmələri elmi və ümumi bir təhlil ilə anlaşılmaz bir şeydir. Məqsədi-əqsa [uzaq məqsəd] etibarilə bunlar da "Müsavat" kimi türkçü, onun kimi federalistdirlər. Yaxın məqsədlərinə gəlincə, "Müsavat" proqramı ilə kəndi proqramları arasında bir fərq yoxdur. Bunları olsa-olsa "Müsavat"dan ayıran bir şey varsa, o da kəndilərinə məxsus tərzi-hərəkətləridir.

Fəqət bitərəf bir mühakimə, madam ki, bu iki firqə arasında bu qədər bir ruh yaxınlığı, bu qədər bir proqram oxşayışı vardır, o halda nədir anlaşammayırlar, nədir paylaşammayırlar deyə düşünə bilər.

Parlamanımızı mərkəzsiz bir hala qoyan, əvvəla, iştə bu bitərəf denilən firqəsizlərin sərazad [sərbəst, özbaşına] olaraq duruşları, sonra da bu "Əhrar" türkçülərinin "Müsavat" türkçülərindən heç bir fərqləri yox ikən yan durmalarıdır.

Halbuki bu iki türkçü firqələr birləşsə və bitərəflər də hər növ əsaslı məsələlərdəki rəyləri ilə və keçmişdəki təcrübələri ilə kəndiləri üçün daha münasib görmələri təbii olan "Müsavat" ilə tövfiqi-hərəkət etməyə [hərəkətlərini bir-birinə uyğunlaşdırmağa] qərar versələr, o zaman, şübhəsiz ki, mühüm bir Parlaman mərkəzinin əsası qurulmuş olar.

Böylə bir mərkəzə toplananlar yalnız gün məsələsi deyil, daha şümullu və daha əsaslı məsələlər üzərinə də anlaşa bilərlərdi.

Böylə bir mərkəzdə milliyyət prinsipi digər əsaslara faiq [üstün] gələ bilərdi. Eyni zamanda, milli demokrat məsləki indiki şərait içərisində böylə bir mərkəz vasitəsilə mümkün olduğu qədər müdafiə və təmin olunardı.

Böylə bir mərkəzə milliyyət əsasını inkar etməyən türkçü sosialistlər də intisab edə [qatıla, birləşə] bilərlərdi.

Fəqət bunun üçün təfriqədən əl götürüb də firqəçi olmalı, şəxsiyyatdan ziyadə əsasiyyata riayət etməlidir.

*N.*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

### 16 təşrini-əvvəl [oktyabr] iclası

Sədr: Həsən bəy Ağayev.
Katib: Əhməd Cövdət.
İclas açılır saat 11.45 dəqiqədə.





**Bakı Mövqe Komandanlığı**

Sədr iclası açaraq məsaili-yövmiyyəni [gündəlikdəki məsələləri] elan edir. Birinci sırada Bakı Mövqe Komandanlığı təşkili və ştatası haqqındakı layiheyi-qanuniyyədir. Məruzəçi doktor Musa bəy Rəfiyev.

Layiheyi-qanuniyyə ştata cədvəli ilə bərabər birinci qiraətdə müttəhidülrəy [yekdilliklə] qəbul olunaraq maddə-maddə qiraətə keçilir və ikinci qiraəti bilaetiraz [etirazsız] qəbul edilir.

**Ümuri-Xeyriyyə Nəzarəti ştatası**

Bədəhu [sonra] Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinin [Sosial Təminat Nazirliyinin] ştatası siyahısı və maaşlarının artırılması haqqındakı layiheyi-qanuniyyənin müzakirəsinə keçilir. Layihə yenidən uzun müzakirə və tənqidlərə bais olur.

**Klenevski** (Ümuri-Xeyriyyə naziri) - Rusca uzun bir nitq söyləyərək Nəzarətin fəaliyyətsizliyi səbəblərini izah edir. Göstərir ki:

Bu vaxtadək Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinin işləməməsinə bir neçə şey mane olmuşdur. Əvvəla, Nəzarətə istədiyi miqdar pul buraxılmamışdır. Pul az olduğundan lazımınca kömək dəxi edilməmişdir. Saniyən [ikincisi], Ümuri-Xeyriyyə Nəzarəti tərəfindən tərtib verilmiş olan bir çox layihələr hökumət nəzdində qəbula keçməmiş, rədd edilmişdir. Bu da Nəzarətin fəaliyyətini məhdud qılmışdır. Digər tərəfdən, möhtaclara kömək məsələsi o qədər geniş dairə almışdır ki, bu işdə bütün hökumət və camaat çalışmalı idi. Yalnız Xeyriyyə və Nafiə Nəzarətinin fəaliyyəti kifayət etməz. Ona görədir ki, Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinin, zənnimcə, qaçqınlara, fəlakətzədələrə lazımınca kömək edilməməsinin təqsiri yalnız məzkur [deyilən] Nəzarətdə olmadığı kimi, məsuliyyəti də həman Nəzarətin öhdəsinə düşməz.

Bu dəlil və mülahizələrlə bərabər, nazir əfəndi Şurayi-Vükəlaya [Nazirlər Kabinetinə] nə vaxt, nə kimi layihə və məruzələr təqdim etmiş olduğunu göstərərək bəyan edir ki, Nəzarət daima çalışmaq istəmiş və çalışmışdır, bir şey hasil olmamışsa təqsir onda deyildir.

Nəhayət, rəqəmlərə keçərək, Azərbaycanda hal-hazırda yüz əlli min (150. 000) möhtac olduğunu və bunlara ən zəruri şeylərdən ən az miqdarda veriləcək olsa belə ayda 75 milyon, ildə bir milyarddan ziyadə pul sərf etmək lazım gəldiyini qeydlə deyir ki:

Bu surətlə, görürsünüz, möhtacları təmin üçün xəzinə belə kifayət etməz. Halbuki Xeyriyyə Nəzarəti ixtiyarında olan pul ehtiyaca nisbətən heç dərəcəsindədir.

Nitqinin axırında pul ilə bərabər məmurlarının da az olduğunu qeyd, məmurlar içində sui-istemal ittifaqları [sui-istifadə halları] olduğunu etiraf və böylələrinin xidmətdən çıxarıldığını bəyan edərək, nəhayət, bununla belə məmurların azlığını, işi yetirəmmədiklərini göstərir. Çox məmur olduğunu təkid edir və nitqinə bu sözlərlə xitam verir:

Yuxarıdan bəri zikr etdiyim kimi Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti qayət ağır və çalışmağa əsla əlverişli olmayan şərait altında işləmişdir. Fəqət böylə şərait altında çalışmaq artıq mümkün deyildir. Binaənileyh [buna görə], mən özüm Xeyriyyə və Nafiə Nəzarətinin ləğvi tərəfdarıyam.

**Qənizadə Sultanməcid** (İttihad) - Nəzarət qulluqçularının çoxluğunu, bəzən xəyanətlər belə olduğunu və qaçqınlara müəyyən bir sistemlə yardım edilmədiyini qeydlə, sistemin fənalığını göstərir və nə üçün dəftərxana xərclərinə sərf etmək üçün 2 milyon tapılır, qaçqınlara verməyə pul yoxdur deyirlər, deyə Nəzarətin fəaliyyətini tənqid edir və nitqinə bu sözlərlə xitam verir:

Nazir bacarmayıram deməklə işin içindən çıxmaq istəyir. Fəqət bunu deyə bilməz. Biz təklif ediriz Nəzarət işlərini yarımçıq qoymayıb davam etdirsin. Fəqət müəyyən bir qayda və nizama salsın.

**[Rza bəy] Ağabəyov** (Müsavat) - Ümuri-Xeyriyyə və Nafiə nazirinin natiqlərə böylə cavab verərək təqsiri başqa Nəzarətlərin boynuna atmasını, məsuliyyəti kəndi boynundan atmaq kimi tələqqi edir [qiymətləndirir] və nəhayət, Ermənistandakı fəlakətzədələr nəfinə [xeyrinə] 3, Zəngəzurdakılara 18 milyon buraxılmış olduğu halda, məhəllində [yerində] möhtaclara bir şey çatmamış olduğu məsələsində müfəssələn dayanaraq deyir ki:

Bu gün nazir izahat verməyə başlarkən mən ondan böyük projelər gözləyirdim ki, deyəcək bu layihələr üzərinə çalışmaq istəyirəm, fikrim də budur. Böylə olsaydı, əlbəttə Parlaman da layihəni qəbul edərdi. Fəqət biz böyük projelər gözləyərkən nə gördük: nazir bizə bir söz belə demədi.

**[Səməd ağa] Ağamalıoğlu** (Hümmət) - Bu Nəzarətin lüzumsuzluğunu isbata çalışaraq, "Xeyriyyə Nəzarətinin qapısı bağlansa belə qaçqınlar heç də zərər çəkməzlər" deyə nitqinin axırında təklif edir ki:

Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti bağlansın. Daxiliyyə Nəzarəti cənbində [nəzdində] bir şöbə açılsın. Qaçqınlara yardım işləri həman şöbənin təhti-idarəsinə [tabeçiliyinə] verilsin. Yardım isə cəmiyyəti-xeyriyyələr vasitəsilə edilsin. Bundan əlavə, məzkur [deyilən] şöbəyə tapşırılsın ki, yalnız yemək şeyləri ilə yardım etməklə qənaətlənməyərək, onlara yer, iş və əkin ləvazimi vermək haqqında tezliklə bir layihə tərtib və təqdim etsin.

**[İbrahim] Əbilov** (Hümmət) - Nazirin bəyanatını kafi görməyərək, tənqid edir. Qaçqınlara kömək edilmədiyini göstərir və ümumiyyətlə Nəzarətin işləmədiyini qeydlə deyir ki:

Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinin nəinki heyətini artırmaq lazım deyil, hətta Nəzarətin özü də lazım deyil. O Nəzarəti qapayıb məmurlarına verilən pul xəzinədə qalsa, daha xeyirlidir. Bu mülahizələrlə mən təklif edirəm ki, Xeyriyyə Nəzarətinin bu layiheyi-qanuniyyəsi qəbul edilməsin və gələcəkdə Nəzarət tamamilə ləğv edilsin.

**[Məhəmməd Sadıq] Axundzadə** (Müsavat) - Nəzarəti tənqidlə bir çox rəqəmlər və dəlillər üzərinə Ümuri-Xeyriyyə Nəzarətinin fəaliyyətsizliyi və qaçqınlara kömək edilmədiyini göstərir. Deyir ki:

Zəngəzurda siyahı üzrə 27 qələmdən düşmüşlər ilə 37 minə qədər qaçqın var ikən nazir o qədər xəbərsizdir ki, 70.000 göstərir.

Sonra fevralda Zəngilanda qəbul edilmiş olan qətnaməni oxuyaraq, bunun da heç birisinə əməl olunmadığını qeydlə, sui-istemallara keçir. Zəngəzur müfəttişinin məmuriyyətinə layiq olmadığını bildikləri halda ancaq təvəqqe ilə qəbul edildiyini, feldşerin qaçqınlara göndərilən davacatı İranda satdığını, Ağdamda qaçqınların yerləşdirilməsi haqqında 2 ay yarım bundan əvvəl görülməsi mütəsəvvər olan [nəzərdə tutulan] tədbirlərə hələ də əməl edilmədiyini və bu işlər xüsusunda nazirə məruzələr verilmiş olduğu halda, bu vaxtadək bir cavab ya bir tədbir olmadığını və nəhayət, böylə məmurlar iş başında qaldıqca camaat arasında hökumət nüfuz, etibar və etimadını qeyb etdiyini təzkarla [qeyd etməklə], bu kimi məmurların xidmətdən əzlini [qovulmasını] və cəzalanmasını tələb edir və axırda təklif edir ki:

Əvvəla, Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti ləğv edilib, yardım işləri Daxiliyyə Nəzarətinə mühəvvəl edilsin [tapşırılsın], saniyən [ikincisi], Parlaman üzvlərinin də iştirakı məşrut [şərt, vacib] olmaq üzrə məhəllərə [yerlərə] bir komisyon göndərilsin və salisən [üçüncüsü], məmurlara verilmiş olan düsturüləməl [təlimatnamə] dəyişsin.

**Rüstəm xan Xoyski** (Ümuri-Xeyriyyə və Nafiə naziri müavini) - Qaçqınların əhvalının fənalığını etiraf və fəqət məbusların gözlədiyi kimi kömək etmək qeyri-mümkün olduğunu qeyd edərək deyir ki:

Fəqət bununla bərabər, Nəzarət heç də işləməyir demək olmaz. Əlində olan pul miqdarında və imkan daxilində kömək edir. Gəncədə 2, Göyçayda 3, Şəki, Gədəbəy, Bakı və sairlərində birər darüleytam [yetimxana] saxlayır. Sair yerlərdə də qaçqınlara az-çox kömək edir. Lakin bununla bərabər, yalnız Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti deyil, bütün hökumət belə bu hal ilə qaçqınlara istənilən qədər kömək və onları təmin edəmməz. Çünki 150.000 qaçqın var və Dağıstandan və Ermənistandan yenə də gəlməkdədir. Həddi-əqəll [ən aşağı hədd] götürülsə belə, ayda 120 milyon pul lazımdır, bu da yoxdur.

Bundan əlavə, Xeyriyyə Nəzarəti bir çox layihə və məruzə vermişsə də, sair Nəzarətlər tərəfindən rədd edilmişdir. Bu surətlə Nəzarət barı istədiyi qədər də yardım edəmməmişdir.

Sonra ştata məsələsinə keçərək, bütün şəhər, qəsəbə və köyləri gəzib yardım etmək üçün 2000 məmur lazım olduğunu və Nəzarətin şimdiki miqdar məmurlar ilə heç fəlakətzədələrin dərdini sorub siyahısını da tutmaq mümkün olmadığını bəyan edərək deyir ki:

Şimdi bizim bu azacıq ştatamızı da qəbul etməzsəniz, o halda əsla işləyə bilməyəcəyiz.

*(Bir səs: Biz də deyiriz qapınız bağlansın.)*

Nəhayət, sosialistlərin tənqidlərinə cavabla, Zəngəzura gedəcək komissiyada iştirak üçün birər nümayəndə vermək haqqında fraksiyalara kağız yazdıqlarını və bu vaxtadək hələ nümayəndə göndərilmədiyini göstərərək "Danışmaq asan, fəqət işləmək çətindir" deyə nitqinə bu sözlərlə xitam verir:

Bu layihə çoxdan hazırlanmışdı. Əgər bu gün yazılsaydı, hələ üç qat artıq məmur istəmək lazım gələrdi. Şimdi bu heyət çox deyildir. Əgər bunu da qəbul etməzsəniz, əsla işləyə bilməyəcəyiz.

**[Əliheydər] Qarayev** (Sol "Hümmət") - Nəzarəti tənqidlə: Qaçqınlara göndərilən şeyləri yolda da siçanlar, yainki siçana dönmüş məmurlar yeyirlər, ya da möhtəkirlərin əlinə düşür, – deyərək möhtaclara kömək edilmədiyini göstərir və tələb edir ki, öylə tədbirlər görülsün ki, camaatın pulu camaatın cibinə girsin.

**Musa bəy [Rəfiyev]** - (yerindən) Tiflis Cəmiyyəti-Xeyriyyəsinin pulu girən ciblərəmi?

Sırada bir çox natiqlər yazılmış olduğu halda, təklif varid [daxil] olur ki, müzakirat bitsin.

Səsə qoyulduqda, təklif qəbul olunur.

Layihəyi-qanuniyyənin ikinci qiraətinə keçilməsi səsə qoyularaq əksəriyyəti-ara [səs çoxluğu] ilə qəbul edilməyir. Bu surətlə Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinin layiheyi-qanuniyyəsi rədd edilmiş olur.

**Qızıl, gümüş ixracı**

Axırda Azərbaycandan xaricə qızıl, gümüş və ağ qızıl ixracı haqqındakı layiheyi-qanuniyyə müzakirə edilir.

**Hacınski Mehdi bəy** (məruzəçi) - Sabiq Rusiya hökuməti dövründə Rusiyadan əcnəbi məmləkətlərə qızıl, gümüş və ağ qızıl aparmağa hər kəsin ixtiyarı vardı. Müharibə vaxtı 1914 sənəsi noyabrın 15-də çar Nikolay, Qanuni-Əsasinin [Konstitusiyanın] 87-ci maddəsi mövcibincə Senata bir fərman verərək bu şeylərin ixracını mən' [qadağan] etdi. Yalnız hər şəxs özü ilə 500 manatlığa qədər qızıl apara bilərdi. Bu qanunu pozanlara, yaxud qaçaq təriqi [yolu] ilə aparanlara cəza olmaq üzrə malı müsadirə edilirdi, malın 5 qat qiyməti miqdarında cərimə alınırdı və bir il 4 ay müddətinə həbs edilirdi.

Bu qanun Azərbaycanda da qüvvəsində baqi qalmışdı. 1918 sənəsi oktyabrın 25-də hökumət Maliyyə Nəzarətinə bir əmr verərək bu qanunu ləğv etməməklə bərabər, qızıl, gümüş və ağ qızılın bilaicazə [icazəsiz] ixracını mən' etmişdi. Sonra ikinci hökumət zamanında isə ixracı qətiyyən mən' edilmişdi. Azərbaycandan aparılması mən' olunan şeylər haqqında Ticarət və Sənaye nazirinin vermiş olduğu siyahıda dəxi bu şeylər vardı. Bu surətlə, bir məsələ haqqında 3 cür qanun vardı. Şimdi Maliyyə naziri bir layihə təqdim edərək qızıl, gümüş və ağ qızıl ixracının tamamilə mən'ini təklif edir. Fəqət cəza məsələsində 1914-cü il qanunu dəyişərək təklif edir ki, məmnu [qadağan] şeyləri ixrac edən şəxslərin malı müsadirə və 5 qat qiyməti miqdarında cərimə edilsin. Lakin bir adam nəqdən deyil, qızıl, gümüş və ağ qızıl əşya aparsa malı müsadirə və ancaq 2 qat qiyməti miqdarında cərimə edilsin.

Təklif varid [daxil] olur ki, Nəzarətin nümayəndəsi isbati-vücud [iştirak] etmədiyindən, bu məsələ müzakirədən götürülsün. Təklif əksəriyyəti-ara [səs çoxluğu] ilə qəbul olunur.

**İxbariyyə vərəqələrinin irsal və təbliği**

Nəhayət hüquq davalarında məhakim [məhkəmələr] tərəfindən göndərilən ixbariyyə [xəbərdarlıq] vərəqələrinin irsal [göndərilməsi] və təbliği üsulunun təğyir və təbdili [dəyişdirilməsi] haqqındakı layiheyi-qanuniyyənin müzakirəsinə keçərək, birinci və ikinci qiraətdə əksəriyyətlə (bilamüzakirə) [müzakirəsiz] qəbul olunur.

İclas bununla xitampəzir olur.





**HEYƏTİ-MÜRƏXXƏSƏMİZ**

1919-cu sənə 28 ağustosda Azərbaycan, Gürcüstan və Ermənistan cümhuriyyətləri heyəti-mürəxxəsəsi rüəsası [nümayəndə heyətləri sədrləri] tərəfindən Klemansoya atidəki [aşağıdakı] müraciətnamə verilmişdir:

Düvəli-Müttəfiqə Məclisi-Alisi [Müttəfiq dövlətlər Ali Məclisi] rəisi Klemanso cənablarına.

Aşağıda imza etmiş Azərbaycan, Gürcüstan və Ermənistan cümhuriyyətləri heyəti-mürəxxəsəsi rüəsası Sülh Konfransına ehtiramla məlum edirlər ki, Müttəfiqlər qoşunlarının Zaqafqaziyanı təxliyə etməsi fəlakətli nəticələri mövcib ola [meydana gətirə] bilər. Binaənileyh [buna görə], Sülh Konfransından rica ediriz ki, fövqdə məzkur [yuxarıda adı çəkilən] cümhuriyyətlərin istiqlalı məsələsi həll və aşkar olmayınca, təxliyə dayandırılsın.

*İmza etdilər:*
*Azərbaycan heyəti-mürəxxəsəsi sədri,*
*Gürcüstan heyəti-mürəxxəsəsi sədri,*
*Ermənistan heyəti-mürəxxəsəsi sədri.*

**TELEQRAF XƏBƏRLƏRİ**

*(Azərbaycan radio mövqifi tərəfindən alınmışdır)*

*(Bolşevik xəbərləri)*

**Hərbi əməliyyat**

Arxangelsk cəbhəsində təbəddülat [dəyişiklik] yoxdur. Kuryer boğazında düşmənin birinci nəqliyyat və hərbi gəmilərdən ibarət eskadrası görünmədədir. Fin səvahili [sahilləri] dairəsində Krasonqorun 10 çağırımlığında şiddətli müharibələr vardır.

Yamburq dairəsində Qatçina və Krasnı kəndi ətrafında vuruşmalar davam edir.

Pskov dairəsi - Pskovdan 35 çağırım şimal-şərqə vuruşmadır.

Lepol dairəsində ciddi hücumla bizim hissələrimiz düşməni 30 çağırım geriyə atmışdır. Tərəfimizdən 50 polyak əsgəri əsir edilib bir pulemyot alınmışdır. Lepoldan qərbə bizim hücumumuz davam edir.

Kiyev dairəsi - Kiyev dairəsində yerləşmiş olan düşməni təqib edərək hissələrimizin müvəffəqiyyətli hücumu davam edir.

Kromı dairəsi - Kromı şəhəri birinci şiddətli vuruşmalardan sonra tərəfimizdən işğal edilmişdir.

Orlov dairəsi təbəddülatsızdır.

Voronej dairəsi - Düşmənin şiddətli müqavimətindən sonra qəhrəman atlı nəfəratımız düşməni sındıraraq Usman nəhri kənarına atmış və dəmiryol mövqifi [stansiyası] işğal edilmişdir. Düşməni təqibdə davam ediriz.

Ust-Medved dairəsində düşmən hücumu dəf edilmiş və düşmən külli tələfat vermişdir.

Ural dairəsində kəşfiyyat işləri davam edir.

**Mitava zəbtiyyə idarəsinin təvizi**

Nauen - Mitavada olan Almaniya zəbtiyyə [polis] idarəsi rus zəbtiyyəsi ilə təviz [əvəz] edilib, general-qubernatorluq edilmiş və bu xidmətə Rusiya qvardiya pol-

kovniklərindən Baydaman təyin edilmişdir. Şəhər mühasirə altında elan edilmişdir.

**İngiltərə əmələlərinin tələbatı**

İngiltərə əmələləri [fəhlələri] bolşevik Rusiya ilə sülh əqd edilməsini [imzalanmasını] tələb edirlər. İngiltərə mədən əmələləri həmçinin həqiqi Rusiya ilə bilatəxir [dərhal] sülh əqdini tələb edirlər.

**Fransada**

Fransa Cümhuriyyəti rəisi tərəfindən sadir olan dekret mövcibincə [verilən dekretə əsasən], Fransa ordusunun ümumi səfərbərliyi ləğv edilmişdir.

**Riqa hadisatı**

Hərbiyyə Nəzarəti Latviya hökumətinin yekşənbə [bazar] günü Riqaya övdət etdiyini [qayıtdığını] elam etmişdir [bildirmişdir]. Almanların Riqaya hücumları davam edir. Onlar boğucu qazlar buraxırlar. Əhali arasında bir çox zərərdidə olanlar vardır. Şəhəri mühafizə üçün estonlar öz ixtiyarlarında olan bütün əsgərlərini və zirehli qatarı göndərmişlərdir.

**Tədabir ittixazı**

Nauen - Ali Şura, Vükəla Şurası rəisi [Nazirlər Kabineti sədri] [Stefan] Fridrixə romaniyalılar getdikdən sonra asayiş və intizamı saxlamaqdan ötrü Macarıstan milisi tərtib etməsini təklif etmişdir. Milis təşkil ediləndən sonra romaniyalılar gedəcəklərdir.

**Könüllü arvadlar**

Nijni Novqorod - Arvadlar firqə komitələrinə gələrək könüllü sifəti ilə cəbhəyə göndərilmələrini tələb edirlər.

**Yaponiyanın həyəcanı**

Yaponiya mətbuatı arasında amerikalıların Dançanı icarəyə götürdükləri xüsusda böyük həyəcan olduğunu xəbər verirlər.

**İtalyanların Rusiyadan getmələri**

Ağ qvardiya qəzetələrindən olan "Obyedineniye" İtaliya cəza qolordusunun [korpusunun] Murmandan getdiklərini xəbər verir. İtaliya qoşunlarını aparan paraxod təşrini-əvvəlin ibtidasında [oktyabrın əvvəlində] çıxmışdır.

**Albaniya vəziyyəti**

Roma qəzetələri Albaniya vəziyyətinin son dərəcə müşkül olduğunu xəbər verirlər. Albaniyaya İtaliya əsgərləri göndərilmişdir. İtaliya ilhaq [işğal] dəstəsi İşkodranı buraxmağa məcbur olmuşdur. Albaniya könüllüləri Orta və Şimali Albaniyanı işğal etmişlərdir.

**Qoltsun xələfi**

[Rüdiger fon der] Qoltsun xələfi olan [yerinə gələn] general Eberhardt Latviya hökumətinə özünün altıncı korpus komandanlığını öhdəsinə götürdüyünü bildirmiş və Latviya hökuməti razılığı ilə hərəkət edəcəyini bəyan etmişdir.

**Üç aydan sonra**

İngiltərə Mədən Əmələləri İttifaqının katibi Qud İngiltərə mədən əmələlərinin üç aydan sonra çıxışlarını gözləmək mümkün olacağını bildirmişdir.





## SÜLH ƏTRAFINDA

**Sülh müahidənaməsi**

Puankarenin Versay müahidənaməsini [sazişini] dün [dünən] imza etməsi rəsmi olaraq nəşr edilmişdir. İngiltərə, İtaliya, Belçika və Lehistan [Polşa] hökumətləri tərəfindən də iki gündən sonra müahidənamə imza ediləcək və o zaman qüvvəyə minəcəkdir.

Parisdən xəbər verirlər ki, Məclisi-Ali general Foşun mərifəti [vasitəsi] ilə Almaniya hökumətini tənbeh etmişdir ki, onun İsveçdə icra etdiyi mühimmati-hərbiyyə satışı sülh müahidənaməsinə müğayir [zidd] olduğuna görə, qeyri-müqənnən [qeyri-qanuni] hesab ediləcəkdir.

**İngiltərə və Sülh mühaidənaməsi**

"Tan" qəzetəsi yazır ki, İngiltərə dövləti bu yaxın zamanlarda Versay mühaidənaməsinin imza edilməsini elan edəcəkdir. Müahidənamə Avstraliya, Yeni Zelandiya, Kanada, Yeni Dünya parlamanları, Cənubi Afrika Cümhuriyyətləri İttifaqı tərəfindən imza edilmişdir. Hindustan dəxi mühaidənaməni imza etmişdir.

**Vilsonun səhhəti**

Havas teleqraf agentəliyinin verdiyi xəbərə görə, rəisi-cümhur Vilsonun səhhəti fənalaşmışdır.

## TÜRKİYƏDƏ

**Kabinənin dəyişməsi və əfvi-ümumi**

Türkiyədə [Damad] Fərid paşa Kabinəsinin 7-8 ay davam edən müddəti-həyatında bir çox daxili intizamsızlıq, xarici müvəffəqiyyətsizliklər vüqua gəldiyi kimi, camaatın da ədəmi-məmnuniyyətini mövcib [narazılığına səbəb] olmuş və mətbuatın da daimi hücumlarına məruz qalmışdır. Versal Sülh Konfransına gedib də orada dəxi bir iş görmədən İstanbula övdət etməsi [qayıtması] Fərid paşa Kabinəsinin mövqeyini daha ziyadə sarsmışdı. Nəhayət, Kabinənin Şərqi Anadoluda Mustafa Kamal paşa ətrafında toplanan milli cərəyana qarşı zidd bir vəziyyət də alması, Türkiyə əfkari-ümumiyyəsinin [ictimaiyyətinin] daha da narazılığını dəvət etmişdir. Bunun üzərinə Fərid paşa Kabinəsində mühüm bir üzv olan Nafiə [Abadlıq] naziri Əhməd Abuq paşanın istefa etməsi Fərid paşa üçün də bir istefa məcburiyyətini çıxarmışdır.

Bunun üzərinə Sultan həzrətləri məşhur paşalardan Birinci fəriq [general] Əli Rza paşaya aşağıda yazdığımız xətti-hümayunla [padşah fərmanıyla] müraciət edib, təzə Kabinənin təşkilinə müşarünileyhi [adı çəkilən şəxsi] dəvət etmişdir:

*"Vəziri-məalisəmirim [uca, şanlı vəzirim] Əli Rza paşa.*

*Fərid paşa Kabinəsinin vüquyi-istefasına və sizin dərkar [aşkar] olan əhliyyət və kifayətinizə binaən [ləyaqət və yetkinliyinizə əsasən], məsnədi-sədarət rütbeyi-samiyeyi-vəzarət və müşiri ilə öhdənizə tövcih [Baş nazirlik mənsəbi uca vəzirlik və müşirlik rütbələri ilə birgə öhdənizə qoyulmuş] və Məşixəti-İslamiyyə [Şeyxülislamlıq] dəxi Heydərizadə İbrahim əfəndi öhdəsinə təfviz olunmuş [tapşırılmış] və Qanuni-Əsasinin [Konstitusiyanın] 27-ci maddəsi ehkamına tövfiqən [hökmünə uyğun*

*olaraq] təşkil eylədiyiniz Heyəti-cədideyi-vükəla [yeni Nazirlər Kabineti] tərəfimizdən təsdiq qılınmışdır. Bir müddətdən bəri əfkari-əhalidə hasil olan sui-təfəhhüm [yanlış anlama] səbəbi ilə təzayüd etməkdə [artmaqda] bulunan asari-təfriqə və şiqaqın izaləsi [nifaq və ikitirəlik əlamətlərinin aradan qaldırılması] ilə beynələhali ahəngi-vifaq[ü] vəhdətin [əhali arasında həmrəylik və birlik ahənginin] təmini və daxili-məmalikdə sükun [sakitlik, asayiş] və intizamın təqriri [möhkəmlənməsi] ilə şəraiti-qanuniyyə [qanunun hökmləri] dairəsində intixabatın [seçkilərin] bir an əvvəl icra və heyəti-məbusanın ictimaya [iclasa] dəvət edilməsi mətlubi-qətimizdir [qəti tələbimizdir]. Həman Cənabi-Qadiri-mütləq [hər şeyə qadir olan Allah] səlaməti-mülk və millətə xadim olacaq [ölkənin və millətin əmin-amanlığına xidmət edəcək] təşəbbüsati-xeyriyyənizdə müvəffəq-bil-xeyir buyursun [xeyirli nəticələrə müvəffəq eyləsin]. Amin behörməti-Seyyidəl-mürsəlin [Peyğəmbərlərin başçısı hörmətinə]."*

*26 məhərrəm 1338*
*21 təşrini-əvvəl 1335*
*Məhəmməd Vəhidəddin*

* * *

Təzə kabinə heyəti aşağıdakı zəvatdan [şəxslərdən] təşəkkül etmişdir:

Sədrəzəm müşir Əli Rza paşa

Şeyxülislam Heydərizadə İbrahim əfəndi

Xariciyyə naziri Mustafa Rəşid paşa

Daxiliyyə « Damad Şərif paşa

Hərbiyyə « fəriq [general] [Mərsinli Məhməd] Camal paşa

Bəhriyyə « Əyandan Saleh [Xülusi] paşa

Maliyyə « Əyandan [Məhməd] Tofiq [Biren] bəy

Ədliyyə « Əyandan Mustafa əfəndi

Maarif « Səid bəy

Ziraət və Ticarət naziri Hadi paşa

Şurayi-Dövlət rəisi Əyandan Əbdürrəhman Şərəf bəy (tarixnəvis) [tarixçi]

Nafiə naziri Əhməd Abuq paşa

Alınan xəbərlərə görə, təzə Kabinə Türkiyədə, bilümum [bütün] siyasi məhbuslarla Anadolu əhval və hərəkatına da şamil olmaq üzrə əfvi-ümumi [amnistiya] elan etmişdir. İstanbul mətbuatından "Təsviri-əfkar" qəzetəsi baş məqaləsində Fərid paşa Kabinəsini şiddətlə tənqid edib məzkur [deyilən] Kabinənin süqutunu məqul [məntiqli] və təbii bir keyfiyyət olaraq göstərdikdən sonra, təzə Kabinə haqqında da şu sətirləri yazır:

*"Fərid paşanı istixlaf edən [əvəz edən] Əli Rza paşa Kabinəsinə gəlincə, Əli Rza paşa şimdiyə qədər Yəmən, Qərbi Rumeli və sairə kimi yerlərdə komandanlıqlarda bulunmuş, bir-iki dəfə Kabinəyə daxil olaraq siyasəti-dövlət ilə də istinas peyda eyləmiş [ünsiyyət qurmuş, yaxın olmuş] bir əsgərdir. Orduda və məmləkətdə iqtidarından ziyadə istiqaməti [düzgünlüyü] ilə mərufdur [tanınır]. Müşarünileyhin [haqqında danışılan şəxsin] Fərid paşanın inad və israrı üzündən siyasəti-daxiliyyə və xariciyyəmizin bu qədər qarışmış olduğu bir zamanda müvəffəqiyyət göstərib-göstərəmməyəcəyi haqqında şimdidən bir şey söylənəmməz. Yalnız intixab etdiyi rüfəqası miyanında [seçdiyi dostları arasında] Hərbiyyə naziri Camal*





*paşa, Daxiliyyə naziri Damad Şərif paşa kimi durbin [uzaqgörən], həmiyyətli zəvat [şəxslər] bulunduğuna nəzərən, hər halda, gündən-günə nəzakət kəsb edən [həssaslaşan] siyasəti-daxiliyyəmizin tədvirində [idarə edilməsində] yeni Kabinənin Daxiliyyə naziri-sabiqi Adil əfəndi ilə Hərbiyyə Nəzarətinə gətirilmiş olan Süleyman Şəfiq paşanın yapdığı kimi məkus tədabir ittixaz etməyəcəyi qəviyyən ümid oluna bilər [uğursuz tədbirlər həyata keçirməyəcəyinə möhkəm ümid bəsləmək olar].*

*Əhvali-siyasiyyəmizin bu gün pək qarışıq olduğu qədər, Avropa siyasətində də biləks [əksinə], lehimizdə pək mühüm cərəyanlar hasil olmuş kimi görünür. Əli Rza paşa Kabinəsi əhvali-daxiliyyəmizin islahı üçün yeganə çarə olan vəhdəti-milliyyəni təmin məsələsində müvəffəq olarsa, siyasəti-xariciyyəmizdə də hüsula gələn güşayişdən [genişlikdən, açılan imkanlardan] istifadəyə imkan bulunacağına şübhə yoxdur.*

*Sabiq Kabinələrin təvali edən [bir-birinin ardınca gələn] binihayə [bitməz-tükənməz] xətaları və qəflətləri üzündən millətin yenidən-yeniyə məruz qaldığı məsaib [müsibətlər] ciddən taqət-güdaz [dözülməz] bir dərəcəyə vardığından və müqəddərati-milliyyəmizin həqiqətən pək nazik [həssas] bir dövrəsinə girmiş bulunduğumuzdan dolayı Əli Rza paşa Kabinəsinin icraat və əfalında [işlərində və əməllərində] bir az olsun isabət [yerinə düşməsini, hədəfə dəyməsini] və müvəffəqiyyət göstərməsini Cənabi-Haqdan ən səmimül-qəlb [ürəkdən, candan] təmənni edəriz."*

## MƏCLİSİ-MÜƏSSİSAN SEÇKİLƏRİ HAQQINDA QANUN

### Yeddinci bab
### Seçkilərin nəticəsini təyin haqqında

82. Mərkəzi Komisyon qəza komisyonlarının məzbətələri [protokolları] əsası ilə bütün Cümhuriyyətdə hər siyahıya verilmiş olan səsləri ümumiyyətlə sayar. Bundan sonra Məclisi-Müəssisan əzasının [üzvlərinin] miqdarı bütün Cümhuriyyətdə hər siyahıya verilmiş olan səslərin miqdarına mütənasibən siyahılar miyanında təqsim olunar [arasında bölüşdürülər]. Surəti-təqsim [necə bölüşdürüləcəyi] 84-86-cı maddələrdə göstərilmiş.

83. İntixabat [seçkilər] üçün təyin edilmiş olan vaxtda bir və ya bir neçə məntəqədə seçki vüqu bulmuş olmasa və bundan dolayı məzkur [deyilən] məntəqələrdə intixabatda iştirak etməmiş olan seçkiçilərin miqdarı bütün Cümhuriyyət intixabçılarının 10-dan bir (1/10) qismindən az olmasa, Mərkəzi Komisyon məntəqələrdə ikinci dəfə seçki icra edilməsi haqqında bilatəxir binagüzarlıqda bulunar [dərhal sərəncam verər]. Əgər seçkidə iştirak etməmiş məntəqələrdə intixabçıların miqdarı bütün Cümhuriyyət seçkiçiləri miqdarının 10-dan 1 qismindən az olsa, həmçinin ikinci dəfə təyin edilmiş seçkilər baş tutmasa, o halda Mərkəzi Komisyonda siyahılar ümumiyyətlə sayılanda, bu məntəqələr hesaba alınmaz.

84. Bütün Cümhuriyyətdə verilmiş olan səslər tədricən 1, 2, 3, 4 ilaxır yerə təqsim edilər. Hasili-təqsimlərdən [bölünmənin nəticələrindən] ümum Cümhuriyyətdən seçiləcək olan Məclisi-Müəs-

sisan əzasının ədədi miqdarında ən böyük hasili-təqsimlər götürülər və başdan ən böyüyü qonulmaq üzrə ən artıqdan ən əskiyədək düzülər. Ən axırkı hasili-təqsim seçki metrosu [əmsalı] olaraq qəbul edilər.

Hər siyahıdan Məclisi-Müəssisan əzasının miqdarı həman siyahıya verilmiş olan səslərin metrosuna bölünməsi təriqi [üsulu] ilə təyin edilər.

Məclisi-Müəssisan əzası yerləri siyahılar arasında təqsim edilərkən, son yer iki ya bir neçə siyahı arasında müştərək qaldığı təqdirdə, o yer ən çox səs almış olan siyahıya verilər. Səslərin miqdarı bərabər olsa, məsələ qürə [püşk] ilə həll olunar.

85. 84-cü maddədə göstərildiyi üzrə təqsim icra edilərkən namizədlər siyahılarından birisinə həman siyahıda göstərilmiş olan namizədlərin miqdarından ziyadə əzalıq yeri düşsə, Məclisi-Müəssisanda o qədər yer boş buraxılmalıdır.

86. Seçki nahiyəsində birləşdirilmiş siyahılar olsa (47-ci maddə) Məclisi-Müəssisan əzasının miqdarı siyahılar arasında təqsim edildikdə, hər ittifaqa daxil olmuş ümum siyahılarda verilmiş olan səslər (vərəqələr) cəm edilərlər və səslər əvvəlcə 84-cü maddədə göstərilmiş qayda üzrə həman ittifaqlarla siyahı çıxarmış olan sair siyahılar arasında təqsim edilər. Bundan sonra hər ittifaqın payına düşən əza miqdaratı yenə həman qayda ilə ittifaqa daxil olmuş siyahıların arasında təqsim edilər. İttifaqa girmiş siyahılardan birisində payına düşən yer qədər namizəd olmasa, boş qalan yer həman ittifaqa girmiş və ən çox səs almış olan siyahının boş qalmış namizədlərilə təkmil edilər.

87. Hər siyahının namizədləri Məclisi-Müəssisan heyətinə başdan (birincidən) başlayaraq siyahıda qeyd edilmiş olduğu tərtib üzrə daxil olarlar.

**Səkkizinci bab**
**Məclisi-Müəssisandan çıxan (imtina edən) əzanın əvəz edilməsi**

88. Məclisi-Müəssisandan çıxan əza kəndisini keçirmiş olan siyahının namizədləri ilə tədricən əvəz edilər. Bir neçə siyahı birləşmiş olduğu təqdirdə, ittifaqa daxil olmuş siyahıdan birisində boş namizəd olmasa, Məclisi-Müəssisandan çıxan üzv həman siyahıya daxil olub da ən çox səs almış siyahının boş namizədi ilə əvəz edilər.

89. Əgər xaric olan üzvü keçirmiş olan siyahının, yaxud ittifaqda isə bütün ittifaqa daxil olmuş siyahıların boş namizədi olmasa, o halda Məclisi-Müəssisandan çıxan üzvün yeri boş buraxılmalıdır.

**Doqquzuncu bab**
**Seçkilərin azad və dürüstlüyünü mühafizə haqqında**

90. Məclisi-Müəssisan intixabatında seçkilər haqqında camaata xitabən nəşr edilmiş müraciətnamə və elannaməni, yaxud siyahı çıxarmış olan qrupun siyahısını özbaşına cıran, gizləyən və dəyişənlər bir aydan üç aya qədər həbs ilə cəzalanarlar.

91. Özbaşına, seçki təbliğatı üçün təyin edilib də siyahı çıxarmış olan bir qrupun ixtiyarında olan binaya soxulmaq, seçki təbliğatı üçün nəşr edilmiş və bir təşkilatın binagüzarlığında [sərəncamında] olan yazıları məhv ya xarab etmək, yaxud həman təşkilat namından fəaliyyətdə bulunan şəxslərə qarşı təcavüz və təhdid etməkdə müqəssir tutulanlar 6 ay qədər həbslə cəzalanarlar.

92. Bir namizədi, ya təmsil etdiyi təşkilatı camaat nəzərində etibardan salmaq və ya başqa namizədlər keçirmək qəsdi ilə namizədin şəxsi və xüsusi həyatı haqqında yalan xəbərlər nəşrində [yayılmasında] müttəhim olanlar bir aydan altı aya qədər həbslə cəzalanarlar.

93. Bir namizədin seçilməyə razı olduğu haqqında saxta ərzi-hal (bəyanat) yazmaq, ya onun yazdığını dəyişməkdə müttəhim olanlar tədibxanaya [islah evinə] salınmaqla cəzalanarlar.

Həmçinin kəndisinin Məclisi-Müəssisana seçilməsinə razı olması haqqında kəndisinə yəqin olan saxta və ya dəyişmiş ərzi-hal verilməkdə müttəhim görülən əşxas [şəxslər] dəxi bu surətlə cəzalanarlar.

94. Saxta vərəqə və siyahı nəşr etməkdə müttəhim olanlar həbsxanaya alınmaqla cəzalanarlar.

95. Təcavüz, təhdid, hökumət və mənsəbindən sui-istifadə və ya intizamı ixlal təriqi [yolu] ilə seçkiçilər təşkilatı tərəfindən dəvət edilmiş iclasın yaxud komisyonların məşğuliyyətinə mane olmaq təşəbbüsündə ittiham edilənlər həbsxanaya alınmaqla cəzalanarlar.

Əgər böylə əmrlərə bir neçə adam mürtəkib olmuş [bulaşmış] və bunun nəticəsində məzkur ictima [deyilən iclas] ya komisyonların fəaliyyəti münqəte olmuşsa [kəsilmişsə], müqəssirlər tədibxanaya alınmaqla cəzalanarlar.

96. Məscid, kəlisa [kilsə] və sair ibadətxanalarda seçki təbliğatı, məsələn moizə yaxud təhriri [yazılı] ya şifahi dəvətlər bilkülliyyə [tamamilə] və bilaistisna [istisnasız] hər kəsə məmnudur [qadağandır]. Müqəssirlər 6 aydan ziyadə olmamaq şərti ilə həbsə alınmaqla cəzalanarlar.

97. Şəxsə təcavüz etmək, mövcibi-cəza [cəzalandırılması lazım gələn] təhdidatda bulunmaq, aldatmaq, hökumət yaxud iqtisadi ixtiyarından sui-istifadə etmək təriqi ilə seçkidə iştirak haqqına malik olanların bu hüquqdan azad bir surətdə istifadə etməsinə mane olmaqda müqəssir tutulanlar, həbsxanaya alınmaqla cəzalanarlar. Qəsdən irtikabı mövcibi-cəzadır [qəsdən işlənməsi halında cəzalandırılır].

98. İntixab komisyonları olan binalarda təcavüzkarlıq, təhdid, binizamlıq, yaxud seçki siyahı, vərəqə və sandıqlarını xarab etmək yainki intixab komisyonu əzasının şəxsinə təcavüz təriqi ilə seçkilərin dürüstlüklə icrasına mümaniət [maneçilik] göstərməkdə müttəhim olanlar tədibxanaya alınmaqla cəzalanarlar.

99. Seçkiçilərdən bir qismini iğtişaş, qorxutmaq yaxud münasibat vəsailini [rabitə vasitələrini] kəsməklə hüquqi-intixabdan məhrum etməkdə müttəhim olanlar 3 ildən artıq müddətə olmamaq şərti ilə tədibxanaya salınmaqla cəzalanarlar. Qəsdən irtikabı mövcibi-cəzadır.

100. Seçki icra olunan binalarda təbliğatda bulunmaq ya intixabat icrası əsnasında nizam və asayişi pozmaq, yaxud seçki icra olunan binadan çıxmaq haqqında sədr tərəfindən edilən binagüzarlığa tabe olmamaqda ittiham edilən şəxs həbslə cəzalanarlar.

101. Bir seçkiçini özünə, yaxud ailəsinin əzasına şəxsi, yainki maddi mən-

fəət vermək ya vəd etmək təriqi ilə Məclisi-Müəssisan seçkilərində iştirak etməyə təhrikdə müttəhim olanlar həbsxanaya alınmaqla cəzalanarlar. Qəsdən irtikabı mövcibi-cəzadır.

Bu maddənin birinci qismində göstərilən məqsədlə maddi mənfəət tələb edən və alan seçkiçi dəxi eyni surətdə cəzalanar.

102. Məclisi-Müəssisan seçkilərində səslərini kəndinə, yainki istədiyi başqa şəxslərə verməyə vadar etmək qəsdi ilə seçkiçiləri qonaq etməkdə müqəssir tutulanlar həbslə cəzalanarlar.

103. Seçkidə iştirak haqqına malik olmayan, yaxud haqqını qeyb etmiş olan şəxslər Məclisi-Müəssisan seçkilərində bilə-bilə səs versələr həbslə cəzalanarlar.

Həmçinin Məclisi-Müəssisan seçkiləri əsnasında müxtəlif nahiyə və məntəqələrdə də olmuş olsa bir dəfədən artıq səs verən, yaxud başqasının əvəzinə səs verən – vələvinki [hətta] həman şəxsin ricası ilə də olmuş ola, – yenə həbslə cəzalanar.

104. Seçki vərəqələrini alarkən, sayarkən yaxud elam [elan] edərkən verilən səsin nəticəsini qəsdən təğlit etməkdə [dəyişdirməkdə], yainki seçki vərəqələrini və ya seçkiyə aid kağızları qəsdən xarab etmək ya oğurlamaqda, yaxud saxta olaraq seçki vərəqələrini artırmaqda, ya seçkiyə aid olan kağızları dəyişməkdə müttəhim olanlar 3 ildən artıq müddətə olmamaq şərti ilə tədibxanaya alınmaqla cəzalanarlar. Qəsdən irtikabı mövcibi-cəzadır.

105. Məclisi-Müəssisan seçkisi əsnasında qanuna müğayir [zidd] olaraq seçki əsrarını [sirlərini] faş edənlər həbslə cəzalanarlar.

106. Bu ya o siyahının nəfinə [xeyrinə] ya zərərinə olmaq üzrə seçkilərin nəticəsinə icrayi-təsir məqsədilə Məclisi-Müəssisan seçkisi haqqındakı qanunu xələldar etməkdə müttəhim olan komisyon üzvü yaxud sair müvəzzəf əşxas [vəzifəli şəxslər] bu əməlindən dolayı daha şiddətli cəzaya məruz gəl[mə]sə, həbslə cəzalanar.

107. Bu maddələrdə göstərilən cəzalardan başqa, məhkəmənin ixtiyarı var aşağıda göstərilən qərarla müqəssirlərə cəza versin:

1) 91, 93, 95, 98, 102, 103 və 104-cü maddələrdə göstərilən əməllərə mürtəkib olanları hökm elan olunan gündən etibarən 5 il müddətinə təşriiyyə [qanunvericilik] müəssisələri və idareyi-məhəlliyə [yerli idarə] seçkilərində iştirak haqqından məhrum qılsın.

2) 92, 98, 102, 103 və 105-ci maddələrdə göstərilmiş əməlləri mürtəkib olan əşxası 3 min manatdan artıq olmamaq şərti ilə cəzayi-nəqdiyə məhkum qılsın.

3) 91, 94, 95, 98, 102, 103 və 116-cı maddələrdə göstərilən əməlləri mürtəkib olanları xidmət sahibi isə xidmətindən əzlə [qulluqdan çıxarılmağa] məhkum etsin.

108. Bu (9-cu) babda göstərilən qərardadlara 1903 sənəsi 22 martda verilmiş cinayət qanunlarının 1-ci babı (Məcmeyi-qəvanin [Qanunlar məcmuəsi], 15-ci cild, 1909) tətbiq edilər.

109. Bu (9-cu) babda göstərilən cinayətləri mürtəkib olanlara qarşı dava başlamağa, mütəzərrir olmaq həsəbi ilə [zərərçəkən olmaq səbəbilə] ümum Məclisi-Müəssisan seçkisinə iştirak haqqına malik olanların ixtiyarı vardır.





110. 90, 91, 97, 101 və 116-cı maddələrdə göstərilmiş əməlləri mürtəkib olanlara qarşı seçki günündən etibarən 3 ay müddətində, sair maddələrdə göstərilən mürtəkiblərə qarşı isə 6 ay müddətində dava başlamaq olar.

111. Bu (9-cu) babda göstərilib də həbsxanaya alınmaq və daha şiddətli cəzalarla cəzalanan cinayətlər barəsindəki işlərə dava vəkilləri iştirakı ilə nahiyə məhkəməsində baxılmalıdır. Sair cinayətlər xüsusundakı işlərə isə məhakimi-sülhiyyə [sülh məhkəmələri] baxar.

**Onuncu bab**
**Məclisi-Müəssisan seçkilərinin məxarici haqqında**

112. Seçkiçilərə nə vaxt qeyb etməkləri müqabilinə mükafat, nə də ərzaq, yainki yol məsarifinə xərclədikləri məbləğ verilər.

113. Şəhərlərdə şəhər seçkiçiləri siyahısı tutmaq xərci Bələdiyyə İdarəsi öhdəsinədir, sair yerlərdə isə Cümhuriyyət xəzinəsi xərcinə. Şəhər idarələrinin bu uğurda sərf etdiyi məbləğin 75 faizi Cümhuriyyət xəzinəsi tərəfindən verilər.

114. Məclisi-Müəssisan seçkilərinə baxan komisyonun işlərinə sərf edilmək üçün Mərkəzi Komisyonun qərardadı ilə Məclisi-Müəssisan seçkiləri ehtiyacı üçün Məclisi-Məbusan tərəfindən təxsis edilmiş [ayrılmış] olan kredi hesabına müəyyən məbləğlər buraxılar.

115. Seçki işlərinə baxan ümum komisyonların əzalarına hər gün üçün mükafat və işin xeyri üçün bir yerə göndərilmiş olsalar yol xərci verilər. Bu (115-ci) maddədə göstərilən qanun komisyonlarda namizədlər siyahısı nümayəndəsi sifəti ilə iştirak edən zəvata [şəxslərə] şamil deyildir.

116. Binaları seçki komisyonlarının ehtiyacına tətbiq etmək və həmçinin işıq və yanacaq xərci şəhərlərdə bələdiyyə idarələri öhdəsinə, şəhər xaricində isə Cümhuriyyət xəzinəsi xərcinədir.

## VÜKƏLA ŞURASINDA
### [NAZİRLƏR KABİNETİNDƏ]

- Xariciyyə nazirinin Nəzarətin daxili və xarici təşkilatı və 1919-cu sənə smetası təsdiqi haqqındakı təqriri [rəsmi müraciəti] isteması [dinlənməsi] nəticəsində qanun layihəsi təsviblə [bəyənilməklə], Məclisi-Məbusana idxalı tapşırılması təhti-qərara alınmışdır.

- Hərbiyyə nazirinin 1-ci Cavanşir piyada alayının zabit vəkili İsmayılovun hərbi şücaətindən dolayı mülazimi-saniliyə tərfisi [leytenant rütbəsinə qaldırılması] haqqındakı təqriri istemasından sonra mərqumun [adı çəkilənin] tərfisi təhti-qərara alınmışdır.

- Xariciyyə nazirinin 1919-cu sənəsinin 12 mayıs faiz əlavəsi qanununun siyasi nümayəndələr, konsullar və məmaliki-əcnəbiyyə [xarici ölkə] əlaqələri nümayəndələrinə təşmili [şamil edilməsi] haqqındakı təqriri isteması nəticəsində, yeni ştat təyininədək təşmil etməyi qərara alınmışdır.

- Ərazi nazirinin Lənkəran meşələrində xüsusi adamlar tərəfindən hazırlanmış və sabiq Lənkəran hökuməti tərəfindən həcz [müsadirə] edilmiş ağaclar haqqındakı təqriri isteması nəticəsində:

1) Həman ağaclar dövlət malı elan edilsin;

2) Məzkur [deyilən] mallar Ərazi Nəzarəti taksası ilə buraxılsın; odun şalmanların çıxarılması xüsusi zəvat [şəxslər] üçün qadağan edilsin;

3) Ərazi Nəzarəti odun və şalmanı hesaba almaqla, dövləti ehtiyac üçün Bakıya gətirsin.

- Maarif nazirinin karton işlərinin Ticarət Nəzarəti öhdəsinə verilməsi haqqındakı təqriri isteması nəticəsində məzkur işlərin Ticarət Nəzarətinə verilməsi təhti-qərara alınmışdır.

- Ərazi nazirinin qanun layihəsi təsdiqinədək ziraət və fəllahət [əkinçilik və kənd təsərrüfatı] alətləri almaq üçün 3 milyon manat buraxılması haqqındakı təqriri isteması nəticəsində, qanun layihəsi təsdiqinədək 70 milyonluq fonddan Ərazi Nəzarətinə 1 milyon buraxılması qərara alınmışdır.

## NƏZARƏTLƏRDƏ [NAZRİLİKLƏRDƏ]

- Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] naziri Rəisi-vükəlaya [Baş nazirə] müraciətən, Dərbənd qaçqınlarına məxsus məhəllərdə [yerlərdə] iaşə məntəqələri güşadı [açılması] üçün para təxsisini [ayrılmasını] rica etmişdir.

- Batumda yaşayan azərbaycanlılar Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə öz əhvallarının fənalığı haqqında istidalar [ərizələr] verirlər. Nəzarət istidaları Rəisi-vükəlaya təqdimən [təqdim etməklə], Vükəla Şurasına idxalını rica etmişdir.

## EHTİYAT SİNİFLƏRİ MÜƏLLİMLƏRİNİN MAAŞLARI HAQQINDA

Bir neçə gün müqəddəm [qabaq] Parlamanda edadi məktəbləri müəllimlərinin maaş layihəsi müzakirə olunduqda, iclas müttəhidülrəy [yekdilliklə] məzkur [deyilən] məktəblər müdərrislərinin [dərs verənlərinin] cümləsini, yəni ali təhsil görmüşləri edadi məkatibi ikmal etmişlərdən [edadi məktəbləri bitirənlərdən] istisna etməyərək, həpsinin maaşlarını müsaviləşdirdi. Bu mülahizə ilə ki, tədris zəhməti hər iki tərəf üçün birdir. Birincilər zəhmət çəkdikləri kimi, ikincilər dəxi o zəhməti çəkirlər. Hər iki tərəf üçün zəhmət saatı bir olduğu üçün, məvacibləri də bir mizanda olmalıdır. Nə gözəl bir fikir və nə gözəl bir mühakimədir.

Filhəqiqə [həqiqətən də], bu inkar olunammaz bir məsələdir ki, işbu məsələ münasibətilə müəllim əfəndiləri könlü şad olmağa haqlı idilər. Zira onların zəhmətləri nəzəri-etibara alınıb, halları dəxi mülahizə olunduğu anlaşılırdı.

Məəttəəssüf [təəssüf ki], son günlər müdərris əfəndilərin bir çoxu övqat-təlx olmağa məruz qalmışdırlar. Eşitdiyimizə görə, vükəlayi-kiram [hörmətli nazirlər], böylə bir ədalətli mühakimələrlə, təsəvvürlərlə bərabər, necə olubsa, edadi məktəblər cənbindəki [nəzdindəki] ehtiyat sinifləri müəllimləri işbu mərhəmətdən istisna olunmuşlar.

İşbu vəchlə edadi məktəblərdə tədrisə məşğul olan müdərrislər birinci sinifdən başlayaraq ayda 3200 rublə maaş aldıqda, ehtiyat sinifləri müəllimləri isə 2200 rublə maaş almaq məcburiyyətində olacaqdırlar. Nədənsə məvaciblərinin birdən-birə 1000 rublə fərqi olacaqdır.

Böylə bir hal ixtilaf deyilmi? Çünki zəhmət dərəcəsi vükəlayi-kiram tərəfindən müttəhidülrəy [yekdilliklə] bir mizanda tutulmuşdur. Yuxarı sinif müəllimləri zəhmət çəkdikləri kimi, ehtiyat siniflər müəllimləri dəxi o zəhməti çəkirlər. İştə, zəhmət bir olduğundan, haqqı da müsaviləşmişdir. Böylə olan surətdə, bəs məzkur haqdan nə səbəbə ehtiyat sinifləri müəllimləri məhrum olmağa məruz qalmışlar?

Filhəqiqə, müəllimlik vəzifəsindən müxbir [xəbərdar] olan zəvati-möhtərəm [möhtərəm şəxslər] bu nöqtəni etiraf edər ki, həmin ehtiyat sinifləri müəllimlərinin zəhmətləri bir qaç dərəcə yuxarı sinif müəllimlərindən daha ziyadədir. Yuxarı sinif mütəəllimlərinin [şagirdlərinin] aşağı sinif mütəəllimləri kimi müəllimlik məharətinə və bir ləfzin on dəfə izahına ehtiyacı yoxdur. Onların dəftərləri məzkur siniflərdəkilərin dəftərləri kimi hər gün müəllimlər tərəfindən evə alınıb təshih olunmayırlar.

Binaənileyh [ona görə], aşağa siniflər müdərrislərinin zəhmətləri birə-iki artıq olduğu aşkardır. Böylə olan surətdə də, məzkur müəllimlər zəhmətcə bir olduqları üçün hüquqca da bir olmalıdırlar.

Bə'd [sonra], bəzilərinin dediklərinə görə, hökumətimiz ehtiyat siniflərini edadi məktəbə daxil etməyib, bunları ibtidai məktəblər şöbələriədd [hesab] etdiklərindəndir ki, bu vəqə nəşət etmişdir [bu hadisə meydana gəlmişdir].

Filhəqiqə böylə isə ehtiyat siniflərinin edadi cənbində olması mütləq artıqdır. İşbu siniflər edadi məktəblərdən münqəte edilib [ayrılıb], ibtidai məktəblərə mülhəq edilməlidir [birləşdirilməlidir]. O vaxtda ibtidai məktəblər də bu ildəki kimi bomboş qalmazdılar. Müəllimlər də hankı məktəbdə olduğunu bilib aldığı maaşa iktifalanırdı [kifayət edərdi].

Doğrudur, zəhmət birdir. Biz yaşayan kimi onlar da yaşayırlar. Məkulatı [ərzağı], paltarı və qeyri əşyayi-lazıməni hamımız bir fiyata alırıq. Fəqət yenə də o zaman hər kəs öz işini bilərdi.

İştə, fövqəlzikr əhvalatdan naşi [yuxarıda deyilən əhvalatan ötrü] bir neçə gün müqəddəm [qabaq] yerli edadi məktəbləri ehtiyat sinifləri müəllimlərinin ümumi iclası vaqe olub, məzkur məsələ müzakirə olunduğundan sonra, bir neçə nəfər müəllim əfəndilərdən intixab olunmuşlar [seçilmişlər] ki, bu xüsusda lazıməli dairələrdə təşəbbüsatda bulunsunlar. Bu işin hankı nöqteyi-nəzərdən böylə olduğunu təhqiq edib bilsinlər ki, şu vəqənin illəti, səbəbi nədir? Nə üçün böylə olmalıdır?

*Müəllim: İbrahim Axundzadə*

**İdarə**: Ehtiyat sinifləri müəllimləri edadi məktəbləri müəllimləri ilə nə təcrübə cəhəti ilə, nə də elm və mərifət etibarilə və nə də sinfi məşğuliyyət nöqteyi-nəzəri ilə bir cərgədə deyildirlər. Onun üçün də Parlaman bu təsaviyi-maaşı [maaşların bərabərləşdirilməsini] ehtiyat sinfi müəllimlərinə təşmil etmədi.

## BAKI XƏBƏRLƏRİ

**Nazirin əziməti [gedişi]**

Posta və Teleqraf naziri Camo bəy Hacınski cənabları məmuriyyət işləri üçün

Bakıdan getmişdir. Onun övdətinədək [qayıtmasınadək] Posta və Teleqraf naziri vəzifəsini Ədliyyə naziri Səfikürdlü Aslan bəy cənabları ifa edəcəklərdir.

**Bələdiyyə İdarəsində**

Bələdiyyə İdarəsi, Ticarət və Sənaye və Ərzaq Nəzarətinə müraciətən məlum etmişdir ki, şəhər üçün məmaliki-əcnəbiyyədən [xarici ölkələrdən] davacat, ləvazimati-tibbiyyə və su yolları ləvazimatı gətirtmək lazımdır ki, Bələdiyyə İdarəsinin lazımi qədər pulu yoxdur. Binaənileyh [ona görə], Bələdiyyə İdarəsi pul tapmaq vəsaitinə [vasitələrinə] müraciət etmək məcburiyyətindədir. Şəhər İdarəsi anbarlarında külliyyətli surətdə əski dəmir mövcuddur ki, İrana aparılarsa yaxşı qiymətə satılmaqla bərabər, paranın qiymətini artırmağa səbəb olacaqdır. Bələdiyyə İdarəsi dəmirin ixracına icazə verilməyi rica etmişdir.

**Bir gürcünün ianəsi**

Xumaradze nam [adlı] bir gürcü Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsi rəisinə məktubən müraciət edərək rica etmişdir ki, mütəvəffa [mərhum] oğlunun ehsanı üçün müsəlman darüleytamı [yetimxanası] binasında sobalar (peçlər) yapmasına və yetimlər üçün çay taqımı hədiyyə etməsinə müsaidə buyurulsun.

**Əcnəbi lisanlarını tədris**

Türkcə, fransız, ərəbcə lisanları. Şaxski küçədə 4-cü çastın həyətində gecələri saat 7-dən 9-a qədər. Türkcə, fransızca, ərəbcə dərslər tədrisi qeydinə başlandığından, talib olanlar yövmi-şənbə, düşənbə, çaharşənbə, pəncşənbə [şənbə, bazar ertəsi, çərşənbə, cümə axşamı günləri] məzkur [deyilən] saatda müraciət etsinlər.

**Qızlar üçün hünər məktəbi**

Məlum olduğu üzrə, Bakı Müsəlman Ünas [Qadınlar] Cəmiyyəti-Xeyriyyəsi tərəfindən keçənlərdə türk-islam qızlarına məxsus olmaq üzrə bir hünər məktəbi açılmışdır. Burada qızlara hər növ əl işi öyrədirlərdi. Keçən ildən bəri məlum səbəblərə görə məzkur [deyilən] məktəb qapalı qalmışdır. Şimdi eşitdiyimizə görə, bu günlərdə həman məktəb təzədən açılacaqdır. Açıldığı günü və ərizələrin harada və nasıl qəbul edildiyini öz vaxtında ayrıca xəbər verəcəyiz.

**Müddəiyi-ümuminin istefası**

Mötəbər mənbədən aldığımız məlumata görə, Bakı Nahiyə Məhkəməsi müddəiyi-ümumisi [prokuroru] Əli bəy Eristov qulluqdan kənar olmuşdur. Eristovun istefası Həsən Mustafayevin həbsdən azad edilməsi ilə əlaqədar tutulur.

## BİRJADA

Bu axır günlər kağız paralar müəyyən bir qiymətdə dayanarkən, qızıl-gümüşün qiyməti gündən-günə yüksəlməkdədir. Böylə ki, Kerenski minlik 1.010 manatdan 1.075 manata qədər, 250 faizsiz və xırda isə kəndi qiymətindən əskiyə gedir. Nikolay 500-lüyü 800-1.500 manata qədər, 100-lüyü 200-320 manata qədər və xırdası 50-80 faizə qədərdir. Osmanlı kağız lirəsi 200 manat və Tiflis parası 1.000 manata 15 manat fəzlədir. Osmanlı altun lirəsi 780 manat, qızıl onluq 920 manat, imperial 650 manat və Otriş [Avstriya] qızılı 2.000 manatdır. Gümüş manat 74 və xırda gümüş para 31 manatdır.

## FİRQƏLƏR VƏ CƏMİYYƏTLƏR

**"Müsavat"da**
**Şuşadan teleqraf**

Şuşadan Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"a böylə bir teleqraf varid [daxil] olmuşdur:

Eylülün [sentyabrın] 23-də Gərd, Kilsəkənd və başqa kəndlərin erməniləri Yelobu kəndinə hücum edərək tamam gün kəndi güllələyib, bir müsəlman öldürüb, bir qaç nəfərini yaralayıb, 370 baş mal aparmışlardır. Ayın 24-də Aqaraq, Ucanis və Sirkətas kəndi erməniləri Fərican kəndinə hücum edib Fəthəli Fəthəlixanovun və bir neçə başqa evləri yandırmışlardır. Yaralanan və ölənlər də dəxi vardır. Talan[an] ev və camaatın salamat qalmasına 3-cü uçastok pristavı Niyazovun yardıma yetişməsi səbəb olmuşdur. Ermənilər tərəfindən yeni mühacirlər gözlənir.

*Zülfüqarov Məhəmmədhəsən*
*Xocahanlı*

**Dəlləklər İttifaqında**

Cümə günü, təşrini-əvvəlin [oktyabrın] 17-də "Müsavat"ın idarəsində Bakı Dəllәkləri İttifaqının ümumi iclası vüqu bulmuşdur. İclas [Əlizadə] Qəzənfərin sədarəti ilə açılaraq, İttifaqa aid bəzi məsail [məsələlərin] müzakirəsindən sonra, Mirzəbala Məhəmmədzadə İttifaqın əhəmiyyəti və lüzumuna və məmləkətimizin hali-hazırda daxili və xarici vəziyyətinə dair məlumat vermişdir.

**Bəhriyyun [dənizçilər] iclası**

Təşrini-əvvəlin 17-də axşam Xeyrulla Qasımzadənin sədarəti ilə "Müsavat" idarəsində Bakı bəhrilərinin [dənizçilərinin] iclası vüqu bulmuşdur. Əsədulla Məhəmmədzadənin məmləkətimizin hali-hazırda daxili və xarici vəziyyəti xüsusunda müfəssəl bir məruzəsindən sonra, aşağıdakı məsələlər müzakirə və həll edilmişdir:

1) Müsəlman mexanikləri bir çox sənədən bəri dənizdə xidmət etdiklərinə cəhət, artıq təcrübəli olduqlarına baxmayaraq vəsiqələri olmadığına görə, xidmətdən ixrac edilirlər. Binaənileyh [ona görə], buna bir çarə edilməsi üçün hökumətə müraciət edilsin.

2) Bəzi gəmi sahibləri müsəlman mexaniklərindən qəsdən xidmətdən çıxarıb, yerinə başqa millətlər qəbul etməklərinə intəha [son] vermək yolunda çarə görülsün. Müsəlman mexaniklərindən ötrü kurslar açılması hökumətdən rica edilsin. İşbu kursları bitirənlərin vəsiqələri olsun.

**Cəmiyyəti-Xeyriyyədə**
**Darüleytamın Cəmiyyəti-Xeyriyyəyə verilməsi**

Təşrini-əvvəlin 18-də Ümuri-Xeyriyyə və Nafiə Nəzarətindən [Sosial Təminat Nazirliyindən] Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsinə işbu məzmunda bir kağız varid [daxil] olmuşdur.

Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti 175 nömrəli kağızınıza cavabən məlum edir ki:

1) Müsəlman darüleytamı [yetimxanası] sizin təhti-idarənizə [tabeçiliyinizə] verilir.

2) Darüleytamda saxlanan hər bir ço-

cuğun məxarici üçün Nəzarətdən ayda 200 manat Cəmiyyətə veriləcəkdir.

3) Darüleytamın islahı və ləvazimat alınması üçün ilk dəfə olaraq 100 min manat verilir.

4) Çocuqların rahatlığını və indi darüleytam olan Bələdiyyə İdarəsinin təxliyəsini nəzəri-etinaya alaraq, Nəzarət sizə təklif edir ki, darüleytamı Bayılda [Nikolay Avqustoviç] fon der Nonnenin həcz [müsadirə] olunmuş binasına nəql edəsiniz və nəticəsini də Nəzarətə bildirəsiniz.

**İşlər artmışdır**

Bu axır vaxtlar şəhərimizə bir çox qaçqınlar gəlməsinə görə, Cəmiyyəti-Xeyriyyənin işi artmışdır. Cəmiyyət 500 nəfərə qədər qaçqına sahib durub, bunların yemək-içməklərini təmin etməkdədir. Qaçqınların hər birinə gündə bir girvənkə yarım çörək verilir. Bunlardan başqa, Cəmiyyət bir çox yerlərə müavinət etməkdədir.

**Türk qaçqınları**

- Bağdad müharibəsində əsir düşmüş iki nəfər türk əsgərləri Bakıya gəlib Türkiyəyə getmək üçün Cəmiyyəti-Xeyriyyəyə müraciətlə kömək istəmişdir. Cəmiyyət bunlara bilet və hər birinə 200 manat pul vermişdir.

- Bunlardan başqa, 4 nəfərə dəxi vətənlərinə dönmək üçün bilet və 400 manat pul verilmişdir.

**İclas**

Düşənbə [bazar ertəsi] günü, təşrini-əvvəlin [oktyabrın] 20-si axşam saat 7-də Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsi İdarəsinin iclası təyin edilmişdir.

Məsaili-yövmiyyə [gündəlikdəki məsələlər]:

1) Darüleytamın Cəmiyyət ixtiyarına keçirilməsi;

2) Qaçqınlar məsələsi.

**Mürəttiblər iclasında**

Təşrini-əvvəlin 17-də 40 nəfərə qədər mürəttib "Müsavat"ın idarəsində vüqu bulan iclaslarında qət etmişlər [qərara almışlar] ki, onlar da hökuməti xidmətdə bulunduqları cəhətinə hökumət tərəfdən başqa hökumət xidmətçilərinə verilən kimi onlara da ucuz qiymətlə birinci zəruri şeylər verilməsini istəsinlər.

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Doktor**
**Əliheydər Allahverdiyev**

Naxoşları qəbul etməyə başlamışdır. Hər gün səhər saat 8-dən 9-adək, axşam saat 4-dən 7-yədək. İçəri şəhər Bolşoy Minaretski küçə, nömrə 1. Bağın qarşısında. Telefon nömrə 36-21.

*9051*

**Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 5-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk-Quryev və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Lənkəran-Astara*

17-ci körpüdən düşənbə, səşənbə və şənbə günü saat 4-də.

*Bakı-Petrovsk*

15, 24 və 25-ci körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 4-də.

*T-178*

**Doktor M. İ. Lurye**

Əmrazi-zöhrəviyyə və daxili naxoşluqları qəbul edir. 914 və 606 müalicəsi. Qəbul edir hər gün səhər saat 8-1-ədək; axşam saat 4-7-yədək. Ünvan: Vorontsovski küçə, nömrə 45, Bandarnının küncündə, yolu Bandarnıdan, nömrə 8, 3-cü mərtəbə. Telefon: 17-06 və 52-36.

*7406*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul edir. (Bövl [idrar] yolu azarına, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçə, nömrə 6.

*7444*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları. Qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Elektrik müalicəsi, 606 və 914 müalicəsi və qeyriləri.

Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*4051*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək.

Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Diş həkimi S. M. Hamburq**

Təzə işlər, qızıl, kauçuk, platina üzərində dişlər qayırılır. Qəbul olunur saat 9-dan 2-yədək, 4-dən 6-yadək. Nikolayevski caddə 21, Parlaman qarşısında. Telefon 5-96.

*9056*

**Diş həkimi E. S. Karşteynbaum**

Maddi cəhətdən zəiflər üçün xüsusi güzəştdə bulunur. Diş çıxartmaq ağrı ilə 25 manat, diş çıxartmaq ağrısız 50 manat. Müalicə və doldurması 80 manatdan 100-ə kimi. Məsləhət 15 manat.

Ünvan: Quba meydanı yanında Sisianovski küçə nömrə 41, İsrafilovun evində. Telefon: 22-57.

*11449*

**İtibdir**

Mirələkbər Mirağa oğlu adına Ərdəbil şəhərindən alınmış pasportu itib. Etibardan saqitdir.

*11465*

Bununla məlum edilir ki, Mirzə Əlinağı Ağazadə Dərbənd əhli olub, Dərbənd hadisəsinə görə oradan fərar edib, özüylə belə pasportunu və məktəb dokumentlərini götürə bilməmişdir. Etibardan saqitdir [etibarsızdır].

*11463*

**Elan**

Azərbaycan Dəmiryolunun İdarəsi bununla məlum edir ki, həmin oktyabr ayının 28-də səhər saat 10-da Bakı yük istasyonunun mərkəzi anbarında atidəki [aşağıdakı] aparılmayan yüklər satılacaqdır:

1) Xudat-Bakı, mərkəzi anbar nömrə 10-86. Xüşkbar [quru meyvə] 3 kisə qədəri 8 pud 25 girvənkə. Çiyid yağı 1 kisə qədəri 1 pud 10 girvənkə. Tum yağı 3 biton 4 pud 4 girvənkə. Tum yağı 1 boçka 17 pud 27 girvənkə;

2) Gəncə-Ləki, nömrə 5656. Ağac kömürü 5 kisə 1 pud 14 girvənkə;

3) Qəbzsiz ağac kömürü 2 kisə 3 pud 25 girvənkə və 1 kisə 1 pud 24 girvənkə;

4) Yalama-Bakı, nömrə 3. Kişmiş 1 kisə qədəri 35 girvənkə;

5) Gəncə-Bakı, nömrə 11318. Boş boçkalar, taxtadan, balıq üçün 10 ədəd 20 pud;

6) Tovuz-Gəncə, nömrə 8705. Boş taxta boçkalar, neft üçün 2 ədəd qədəri 3 pud 15 girvənkə;

7) Bakı-Gəncə, nömrə 248896. Taxta boş boçkalar, şərab üçün 2 ədəd 1 pud;

8) Yevlax-Bakı, nömrə 9228. Yenə də, 1 ədəd 4 pud;

9) Yenə də, nömrə 9229. Yenə də, neft üçün 1 ədəd 7 pud;

10) Ucar-Biləcəri, nömrə 1642. Molotaya [üyüdülmüş] ... 32 kisə qədəri 142 pud;

11) Qəbzsiz sernaya kislota [sulfat turşusu] qədəri 5 pud 20 girvənkə;

12) Qəbzsiz quru ot 14 tay qədəri 23 pud və saman 16 tay qədəri 30 pud.

*T-292*

**Bakı Darülfünunu**

Elan edir ki, Darülfünunun Ali Tibbiyyə məktəbinə oktyabrın 20-dən etibarən ərizələr qəbul edilməyəcəkdir.

*Darülfünun rektorunun vəzifəsini*
*ifa edən professor: A. M. Levin*
*T-288*

**Bakıda "Feniks" yoldaşlarının pilətə fabrikası**

Bununla möhtərəm müştərilərimizə xəbər veririk ki, axır vaxtlar bazarda pis şeylərdən qayrılan bir çox pilətələr satılır. Bu pilətələrin cildi biz qayıran pilətələrin cildinə oxşayır və nəticədə bizim müştərilərimiz aldanırlar.

Möhtərəm müştərilərimizdən xahiş edirik ki, gələcəkdə, necə ki özlərinə bizim pilətələrimizin yaxşı olmağı məlumdur, "Energiya" fabrikasının qırmızı fabrika markası "Minon" ilə və qeyri fabrikaların buraxdığı saxta pilətələri almaqdan ayıq olsunlar və həmişə "Feniks" fabrikasında buraxılan həqiqi pilətələri tələb etsinlər.

*11461*

***Müdir:***
***Hacıbəyli Üzeyir***





## QEYD VƏ ŞƏRHLƏR

**Ümum müsəlmanlara**
**Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsi tərəfindən müraciət**

səh. 356. "Nikolayevski": Bakıda, indiki İstiqlaliyyət küçəsi.

"Spasski": Bakıda, indiki Zərgər-palan küçəsi.

"Qorçakovski": Bakıda, indiki Hacı Zeynalabdin Tağıyev küçəsi.

"Polis küçəsi": Bakıda, indiki Yusif Məmmədəliyev küçəsi.

"Qəni Məhəmmədov": qəzetdə səhvən "Qəni Mahmudov" getmişdir.

"Qəni Məhəmmədov kontorunda (Dərya kənarında)": Qəni Məhəmmədovun evi İçəri şəhərdə Asəf Zeynallı küçəsində yerləşir.

**Parlaman mərkəzi haqqında**

səh. 357. "mülkiyyət əsasının ilğası": qəzetdə "mülkiyyət" yerinə "məmləkət" getmiş, qəzetin sonrakı – 301-ci nömrəsində bu barədə düzəliş verilmişdir.

**Teleqraf xəbərləri**

səh. 363. "Mitava": Latviyada şəhər; indiki Yelqava [Jelgava] şəhəri.

**Sülh ətrafında**

səh. 365. "Yeni Dünya": "Köhnə Dünya" adı verilən Avropa, Asiya və Afrikanın xaricindəki quru parçaları – Amerika, Avstraliya və Okeaniya.

**Türkiyədə**

səh. 365. "Müşir": Osmanlı ordusunda ən yüksək hərbi rütbə; müasir dövrdəki ordu generalı və marşal rütbələrinə bərabər idi.

səh. 366. "sükun və intizamın": qəzetdə "sükun" yerinə "məskun" getmişdir.

"26 məhərrəm 1338 / 21 təşrini-əvvəl 1335": burada tarix həm rumi, həm də hicri təqvimlə verilmişdir; miladi təqvimlə 21 oktyabr 1919-cu ilə uyğundur. Qəzetdə "təşrini-əvvəl" yerinə səhvən "təşrini sani" getmişdir.

"Əyandan": Osmanlı Parlamentinin yuxarı palatası olan Əyan Məclisinin üzvü.

səh. 367. "taqət-güdaz bir dərəcəyə vardığından": qəzetdə "taqət-güdaz" yerinə "taqət-güzar" getmişdir.

**Ehtiyat sinifləri müəllimlərinin maaşları haqqında**

səh. 377. "edadi məktəbləri": ibtidai və orta təhsildən sonrakı, ali təhsildən əvvəlki mərhələyə məxsus məktəblər.

**Bakı xəbərləri**

səh. 374. "Şaxski küçə": Bakıda, indiki Mirzə Fətəli küçəsi.

**Elan**

səh. "Molotaya [üyüdülmüş] ... 32 kisə qədəri 142 pud": arada bir söz silinmiş.